**Pol Stretern**

# KYERKEQORLA 90 DƏQİQƏ

Tərcüməçi:
Çinarə Məhəmməd

qanun nəşriyyatı

Paul Strathern

# KIERKEGAARD IN 90 MINUTES

İlk ekzistensialist filosoflardan sayılan danimarkalı sosial tənqidçi və teoloq Kyerkeqor kainatdan yox, canlı həyatdan yazırdı. “Mövcudluq nədir?” onun üçün ən fundamental sual idi – bütün elmi-yaradıcı fəaliyyətinin mahiyyətini bu suala cavab tapmaqda görürdü. Çünki nə Kant, nə də Hegel mövcudluq haqqında suala qənaətbəxş cavab vermişdi – onlar ilkin problemi nəzərdən qaçırmışdılar. Hər iki filosofa görə rasional sistem rasional aləmi zərurətə çevirirdi. Əql isə yalnız öz suallarına cavab verir: subyektiv “mən” əqlin sərhədləri kənarındadır. Kyerkeqor bunu yaxşı anlayırdı.

Kitab filosofun həyatı və yaradıcılığı haqqında ən vacib məlumatları yığcam şəkildə təqdim edir – zamana qənaət etməklə onu tanımaq şansı verir.

**Paul Strathern KIERKEGAARD IN 90 MINUTES**
**Pol Stretern KYERKEQORLA 90 DƏQİQƏ**
Bakı, Qanun Nəşriyyatı, 2024, 72 səh.

Janr: non-fiction/fəlsəfə/bioqrafiya
Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 12.05.2024

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Çinarə Məhəmməd
Redaktor: Cəlil Cavanşir
Korrektorlar: Şəhla Yarıyeva, İradə İslamova
Texniki redaktor: Aydın Səlimli
Mətn dizaynı: Rahilə Şamil
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-957-9

© Qanun Nəşriyyatı, 2024
© Chicago: Ivan R.Dee, 1997

Bu kitabın Azərbaycan dilinə tərcümə və
yayın hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli
hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

# GİRİŞ

Əslində, Kyerkeqor sözün akademik mənasında heç də filosof deyildi. Amma bununla bərabər onun toxunduğu mövzular çoxlarının fikrincə elə fəlsəfənin əsas mövzularıdır. O, aləm haqqında yox, həyat haqqında – bizim yaşamağımız və hansı həyat yollarını seçməyimiz barədə yazırdı.

Kyerkeqor canlı (həyatda olmaq) olmağın nə demək olması barədə düşünürdü. Onun araşdırmasının predmeti fərd və onun "mövcudluğu"dur. Kyerkeqorun fikrincə, bu təmiz subyektiv varlıq təfəkkür, məntiq, fəlsəfi sistemlər, teologiya və hətta "psixologiyanın iradları"ndan kənardadır. Düzdür, bütün bu sadalananların mənbəyi məhz insandır. Baxmayaraq ki, nə filosoflar, nə teoloqlar, nə psixoloqlar Kyerkeqoru qəbul etmək istəyirdi, məhz o, fəlsəfi və ya puristlərin iddia etdiyi kimi fəlsəfi olmayan istiqamətin, ekzistensializmin əsasını qoydu.

Ekzistensializm həmən ortaya çıxmadı. Nitsşe, Husserl və Haydigger kimi filosoflar özləri bunu anlamasa da, eksiztensialist idilər. Düzdür, Haydigger qəti olaraq belə şərəfə layiq olmaqdan imtina edir, Nitsşe isə bu termin formalaşmamışdan öncə dünyasını dəyişmişdi. Həqiqətən də, ekzistensializmin tam qəbulu və məşhurluğu Kyerkeqorun ölümündən yüz il keçmiş, II Dünya müharibəsindən sonra Jan Pol Sartr fəlsəfəsinin yayılması ilə geniş vüsət aldı.

Müharibədən sonra Paris intellektualları təlaşlı idilər: ideallar yıxılmış, inanc sistemi mənbəsiz qalmışdı. Nəyə inanmalıyıq? Öz absurdluğu ilə cəlbedici olan sürrealizm indi, sadəcə, mənasız görünürdü. Stalinin önə çıxması ilə fransız intellektuallarının kommunizmə də (düzdür, kommunizmi anlamaq üçün müəyyən cəhdlər edilirdi) inamı azalırdı. Məhz bu aralıqda ekzistensializm[1] ortaya çıxdı və maraqlısı bu idi ki, bu cərəyan ardıcıllarından nəyəsə inanmağı tələb etmirdi. Bundan başqa, o həm də iddia edirdi ki, ümidsizlik insan mövcudluğunun ayrılmaz hissəsidir.

---

[1] Ekzistensializm (lat. exsistensia – mövcudluq, varlıq) – insanın mövcudluğu problemini araşdıran və subyektiv təfəkkür, hiss və hərəkət təcrübəsinə əsaslanan fəlsəfi araşdırma formasıdır. Məsələn, bir ekzistensialistin fikrincə, fərdin başlanğıc nöqtəsi "ekzistensial narahatlıq", zahirən mənasız və ya absurd bir dünya qarşısında qorxu, oriyentasiya, çaşqınlıq və ya narahatlıq kimi adlandırılır. (Red.)

Ekzistensializm tez məşhurlaşıb Sol sahilin[1] sərhədlərini aşaraq Greenwich Village[2], Londonun kofe barları və San-Fransiskoda bitniklərin məkanlarına daxil oldu. Ona Atlantik okeanının hər iki sahilində olan universitetlər diqqət yetirdi. Bu fəlsəfəni öz fəlsəfəsi kimi həm kafe insanları, həm də universitet professorları qəbul etdi. Maraqlısı odur ki, bu fəlsəfə özündə xəyali yüngüllük ilə nüfuzedici dərinliyi birləşdirə bilmişdi. Bu, eyni dərəcədə həm rəssam, həm yazıçı, həm filosof, həm də müxtəlif növ fırıldaqçıları özünə cəlb edir, nəticədə bu fəlsəfə yayılır və inkişaf edirdi. Məhz belə demokratikliyinin hesabına ekzistensializm son on illikdə inkişaf etməyə başlayan biheviorizm[3], strukturalizm[4], poststrukturalizm[5] və digər bu kimi cərəyanların yaranmasında rol oynaya bilmişdi.

---

[1] Fr. Rive Gauche – Sena çayının sol sahili, Parisin cənub səmtləri. Daha çox intellektualların, yazıçı, rəssam və şairlərin toplaşdığı məkan. Xüsusilə İkinci Dünya müharibəsindən sonra çox kübar bölgələrdən biridir. Hal-hazırda sakitliyi, kübar insanların yaşadığı bir bölgə olması ilə tanınır. (Red.)

[2] Greenwich Village və ya sadəcə olaraq The Village Nyu-Yorkda Aşağı Manhettenin qərb tərəfində, şimalda 14-cü küçə, şərqdə Brodvey, cənubda Hyuston küçəsi və qərbdə Hudzon çayı ilə həmsərhəd olan bir məhəllədir. XIX əsrdə bohemyanizmin, daha sonra isə Bitnik hərəkatının yarandığı bölgədir. (Red.)

[3] Biheviorizm cərəyanı elmə yeni faktorların – davranış faktorlarının gətirilməsi ilə xarakterizə olunur. Davranış sözü altında insanın psixi fəaliyyətinin xarici ifadəsi nəzərdə tutulur. (Red.)

[4] Strukturalizm ədəbi şərhin tarixi formalarından biri kimi XX əsrin əvvəllərində dilin təbiəti haqqında meydana çıxan yeni nəzəriyyələrin tərkibində yaranmışdır. (Red.)

[5] Poststrukturalizm – strukturalizm tərəfindən irəli sürülən müxtəlif şərh strukturlarının obyektivliyini və ya sabitliyini şübhə altına alan və onların daha geniş güc sistemləri tərəfindən təşkil olunduğunu hesab edən fəlsəfi hərəkat. (Red.)

Ekzistensializm fəlsəfəsinin mərkəzində mövcudluq problemi, XX əsrə xas olan özgələşmə, qorxu, narahatlıq, absurd və s. bu kimi terminlər ilə hədsiz maraqlanmaq tendensiyası dururdu. Ancaq bunların hamısı Sartrdan yüz il əvvəl Kyerkeqorun fəlsəfəsində yer almış ideyalar idi.

Kyerkeqor sözsüz öz dövrünün önündə gedirdi. Bununla yanaşı, o, uzun zamandır yenidən müzakirəsi zəruri olan məsələni qaldırmışdı: “Mövcudluq nədir?” Düzdür, bu sualı özlərinə filosof olmayan insanlar da tarix boyu verirdilər. Filosoflara bu sual ya mənasız gəlir, ya da onların öz çərçivəsində tükənmiş mövzu kimi xarakterizə olunduğu üçün yersiz hesab olunurdu. Kyerkeqor isə öz tərəfindən hesab edirdi ki, hər bir insan özünə nəinki bu sualı verməli, hətta həyatı ilə bu suala subyektiv cavab tapmalıdır. Məhz subyektivliyə verdiyi önəm Kyerkeqorun fəlsəfə tarixinə gətirdiyi əsas töhfədir.

Mövcudluq və ya varlıq problemi erkən yunan fəlsəfəsinin bir çox nümayəndələri tərəfindən əsas məsələ kimi müzakirə olunurdu. Varlıq məsələsi Sokrat və Platonun fəlsəfəyə rasionallıq gətirməsindən əvvəl mütəfəkkirləri maraqlandırırdı. Mövcud olmaq nə deməkdir? Mövcud olmağın mənası nədir? Bizim dövrdə də bir çox ciddi filosoflar bu sualları gülməli və sadəlövh hesab edir. Amma biz adi ölümlülər sakitləşmir və sual verməyə davam edirik. Hətta bəziləri cavabların məhz filosoflar-

dan gələcəyini gözləyir. Ancaq sokrataqədərki dövrdə elə filosoflar mövcud idi ki, onlar gələcək filosofların bu məsələdə hansı zirvələrə çatacağını bilmədiyi halda varlıq suallarına kifayət qədər ciddi yanaşırdılar.

E.ə V əsrdə Cənubi İtaliyanın Eley koloniyasında yaşayan Parmenid iddia edirdi ki, varlıq bütün mövcudluğun yeganə dəyişməyən elementidir. "Hər şey vahiddir". Çoxluq, dəyişkənlik, hərəkət, sadəcə, görüntüdür. Sokrataqədərki dövrün digər filosofları "real" predmetlər, abstrakt təsəvvürlər və təsəvvür olunan əşyaların mövcudluğu arasındakı fərqi öyrənirdilər. Mənim mövcudluğum riyazi rəqəmlərin və ya təxəyyülün mövcudluğundan nə ilə fərqlənir? Ümumiyyətlə, "mövcud olmaq" nə deməkdir?

Daha sonra Sokrat və Platonun vaxtı gəldi və "özüm olmaq nədir, dərk et" əvəzinə, "özünü dərk et" məsələsi gündəmə gəldi. Varlıq problemi fəlsəfədən getdi. Bu fundamental (bəlkə də, bu anlayış mövcud anlayışlar arasında ən fundamental olanıdır) anlayışı, sadəcə olaraq, görməzdən gəlirdilər. Platon üçün mövcudluq, sadəcə, mövcud bir hal idi və o, müzakirəyə cəlb edilmirdi. Fəlsəfənin əsas məsələsinin yanından ötəri keçmiş Platonu bütün zamanların ən böyük filosofu hesab etmək olarmı? (Bütün zamanların ən məşhur alimi Nyuton hesab olunurdu, amma bu, Eynşteynə Nyutonun nəzəriyyəsinin yanlış zənn üzərində qurulduğunu

sübut etməyə mane olmadı). Bizim zamanımızda yayılan fikrin əksinə demək olar ki, fundamental inkişaf mövcuddur. Biz aləm haqqında daha çox şeyi öyrənirik və bu, demək olar ki, bütün sahələrdə gerçəkləşir (yalnız fəlsəfədən başqa, yəqin ki). Ancaq Kyerkeqorun bunu dediyi mənada, yəni fərdi mövcudluq səviyyəsində biz əvvəlki pillədə qalmışıq. Subyektiv mövcudluğa aid olan məsələlərdə isə sanki heç inkişaf yoxdur. Biz hamımız, yaşadığımız sevinc və kədər hissindən asılı olmayaraq, insan mövcudluğu vəziyyətindəyik. Bu mövcud vəziyyət isə uzun zamandır dəyişməz olaraq qalır.

Estafeti Platondan alan digər filosoflar insan mövcudluğu haqda olan məsələni görməzdən gəlməyə davam edirdilər. Bizim hamımızı birləşdirən yeganə xüsusiyyət – subyektiv reallıq həvəskar filosofların mərhəmətinə təslim edilmişdi. Platon və onun tələbəsi Aristotelin nüfuzu iki min il ərzində toxunulmaz olaraq qalırdı.

Yalnız XVII əsrdə fəlsəfə nə zamansa üzərində formalaşdığı məsələlərə qayıtdı. Mən kiməm? "Mən mövcudam" birləşməsi altında mən nəyi anlayıram? "Cogito ergo sum" (düşünürəmsə varam) – ideyası Rene Dekart tərəfindən elan olundu. Mənim onu düşündüyümdən başqa hər şey şübhəyə məruz qala, illüziya və ya aldadıcı təxəyyül ola bilər. Hər bir fəlsəfənin üzərində qurulduğu fundamental anlayış, mütləq və şübhəyə məruz qalmayan ideya yenidən "subyekt" anlayışı olurdu. Ancaq bu sub-

yekt bir çox xüsusiyyətlərinə görə fransız intellektualını xatırladırdı. O yalnız düşündüyü təqdirdə mövcud ola bilirdi. Hisslər, duyğular və s. bu kimi hallara güvənmək olmazdı. Yəqin ki, subyektiv "mən" yalnız mövcud olduğunu bilir, yerdə qalan digər şeylərdə isə o, əminliyə malik deyildi. Müdafiəsiz halda o, yalançı elementlər qarşısında qaldı: "Bəzək olmadan insan yalnız çılpaq ikiayaqlı heyvandır", – deyir Şekspir "Kral Lir" əsərində.

Müdafiəsiz, yazıq varlıq üçün sığınacağı sonda alman filosofu Kant qurdu. O, hər şeyi əhatə edən əqlin fəlsəfi sisteminə əsaslanan böyük saray qurdu və bu saray subyektiv "mən"i öz parıldayan otaqlarına aldı. Kantdan sonra gələn Hegel daha böyük sistem qurub belə bir fikrə əsaslandı ki, "hər şey, həqiqətən, məntiqlidir (əqlə əsaslanır), məntiqli hər şey isə həqiqətdir".

Ancaq həm Kant, həm də Hegel necə oldusa ilkin problemi nəzərdən qaçırdılar. Onların sistemi "mövcudluq nədir?" sualına qənaətbəxş cavab vermirdi. Rasional sistem rasional aləmin olmağını zəruri edir. Əql, sadəcə olaraq, özünün verdiyi suallara cavab verir. Subyektiv "mən" əqlin sərhədləri kənarındadır və tam anlamda aləmin bir hissəsi deyil. Kyerkeqor bunu anlayırdı. Cavab ideal, hər şeyi izah edən sistemin yaradılmasında deyildi. "Mövcudluq nədir?" və "Mövcudluq nə deməkdir?" kimi suallar daha fundamental məsələlər idi və Kyerkeqor əsas məqsədi onlara cavab tapmaqda görürdü.